

# "Heydər Əliyev ili" çərçivəsində musiqili tədbir keçirilib



**Qaradağ rayon Heydər Əliyev Mərkəzində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 28 nömrəli Uşaq Musiqi Məktəbinin hazırladığı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş olunub.**



Tədbirdə Qaradağ rayon İcra Hakimiyyəti başçısının müavini Nadir Muradov, Milli Məclisin deputatları Aydın Hüseynov və Səbinə Xasayeva, Qaradağ rayon İcra Hakimiyyəti başçısı aparatının şöbə müdirləri, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, Şura üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Qaradağ rayon İcra Hakimiyyəti başçısının müavini Nadir Muradov, Milli Məclisin deputatı Səbinə Xasayeva və YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev qeyd ediblər ki, Heydər Əliyevin Azərbaycan mədəniyyətinin və incəsənətinin kamil bilicisidir. Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəlişə doğru keçdi. Ulu Öndər həmişə bəstəkarlara, ifaçılara, musiqiçilərə qayğı və hörmətlə yanaşıb, onlar ilə tez-tez görüşlər təşkil edib və əməklərini daim yüksək qiymətləndirib.

**Sonda məktəbin müəllim və şagirdlərin ifasında konsert proqramı təqdim olunub.**

**Azad RZAZADƏ**







Azad Azərbaycan.- 2023.- 30 noyabr.- № 39.- S. 5.